Gənclik ümidimizdir

# "Vətən uğrunda vuruşmaq böyük xoşbəxtlikdir!"

**27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Vətən təəssübü çəkən oğullar könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollandılar. Belə oğullardan biri də Zaqatala rayonunun Gözbarax kəndində anadan olmuş Əliyev Musa Şirin oğlu idi. Musa kiçik yaşlarından idmanın cüdo növünə böyük maraq göstərib. Dəfələrlə gənclər arasında keçirilən yarışlarda iştirak edib, uğurlu nəticələr qazanıb. 2008-ci ildə yaşıdları ilə bərabər ordu sıralarına çağırılıb. Əsgəri borcunu "N" hərbi hissəsində yerinə yetirib. Xidmətinin 9 ayını Əfqanıstandakı sülhməramlı qüvvələrimizin sıralarında çəkib. Sülhməramlı əsgər kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Vətən qarşısındakı övladlıq borcunu layiqincə başa vurduqdan sonra 2009-cu ildə doğmalarının yanına qayıdıb.**



Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlayanda Musa Əliyev də könüllü olaraq yurdumuzun müdafiəsinə atılıb. Onun xidmət etdiyi hərbi hissənin şəxsi heyətini Tərtər rayonunun Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərə cəlb ediblər. Əməliyyatların ilk günlərindən cəsarəti və şücaəti ilə fərqlənən Musa komandirlərin verdiyi tapşırıqları qorxu bilmədən, mətanətlə yerinə yetirib. Suqovuşan və Talış kəndlərində erməni işğalçılarının qurduqları istehkamların yarılmasında böyük şücaət göstərib. Sərrast atəşlə neçə-neçə erməni qəsbkarını məhv edib. Müharibə Zəfərlə başa çatandan sonra Musa Əliyev 2020-ci ilin dekabr ayında ordu sıralarından qalib əsgər kimi tərxis olunub. 44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə Əliyev Musa Şirin oğlu Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Söhbət zamanı keçmiş döyüşçü Musa Əliyev dedi ki, Qarabağ uğrunda vuruşduqca sanki gücümüz daha da artırdı. Düşməni məğlub edib geri sıxışdıra-sıxışdıra uzun illərdən bəri işğalda qalmış torpaqlarımızı azad edirdik. Qoynunda doğulduğun Vətən uğrunda vuruşmaq çox böyük xoşbəxtlikdir. Tarixin bu anlarında Qarabağı azad etmək biz gənclərin üzərinə düşmüşdü. İrəli atdığımız hər addım bizi böyük zəfərə, qələbəyə yaxınlaşdırırdı. İlk vaxtlar ermənilər çox ciddi müqavimət göstərirdi. Sonrakı günlər isə qəsbkarlar güclü hücumlarımız qarşısında dayana bilmədilər. Getdikcə qüvvəsi tükənən, müqaviməti qırılan, şəxsi heyətini, hərbi texnikasını itirən düşmən silah-sursatını atıb qaçmağa başladı. Yağılar geri çəkildikcə biz Qarabağın içərilərinə doğru irəliləyirdik. İlk dəfəydi ki, ayağım Qarabağın torpaqlarına dəyirdi. Bu anlarda xoş hisslər keçirirdim. Belə şərəfli günlərdə Vətənə əsgər olmağımdan qürur duyurdum. Gərgin keçən döyüşlərdən sonra Suqovuşan və Talış kəndlərini, həmçinin bir neçə strateji əhəmiyyətli yüksəkliyi qəsbkarlardan azad etdik. Noyabrın 10-da erməni işğalçıları məğlub oldular. Düşmən üzərində Zəfər çaldığımıza, Qarabağı azad etdiyimizə görə gələcək nəsillərin üzünə həmişə alnıaçıq, başıuca baxacağıq. Çünki biz Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda vuruşmuşuq.

Sentyabrın 19-da Qarabağda separatçılara qarşı keçirilən antiterror tədbirləri nəticəsində Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və Əsgəran rayonları erməni işğalçılarından azad olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı dalğalandırdı. Bu günlər ömrümüzün çox qürurverici günlərini yaşayırıq. Biz buna layiqik, çünki qalib xalqıq.

Vətən Musa Əliyev kimi cəsur oğullarla həmişə fəxr edib və qürur duyacaq. Çünki onlar yurdumuzun azadlığı uğrunda vuruşublar.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 26 noyabr, № 258.- S.7.